Ümumi məlumat	**Fənnin adı, kodu və kreditlərin sayı**	AZLL 512 Terminologiyanın əsasları,3 kredit, 6 AKTS
	Departament	Dillər və ədəbiyyatlar
	Proqram(bakalavr, magistr)	Magistr
	Tədris semestri	2023/2024-cü tədris ilinin yaz semestri
	Fənni tədris edən müəllim (lər)	Dos. Sevinc Ağayeva
	E-mail:	Sevinj.Aghayeva@khazar.org
	Telefon:	
	Mühazirə otağı/Cədvəl	
	Məsləhət saatları	Tələbələr ilə razılaşdırılmış vaxtda
Prerekvizitlər	Yoxdur	
Tədris dili	**Azərbaycan dili**	
Fənnin növü (məcburi, seçmə)	**Seçmə**	
Dərsliklər və əlavə ədəbiyyat	1. **S.Sadıqova. Azərbaycan dilinin terminologiyası. Bakı: "Elm"-2011, 378 s.** 2. **N.Məmmədli. Azərbaycan dilində alınma terminlər. Bakı: "Elm"- 2017, 488 s.** 3. S.Sadıqova. Müstəqillik illərində Azərbaycan dilində terminologiyanın inkişafı. Bakı: "Avropa" – 2016, 396 s. 4. Vəfa Abdullayeva-Nəbiyeva. Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı. AzMİU "Nəşriyyat-Poliqrafiya Mərkəzi", Bakı, 2020, 239 səh. 5. S.Sadıqova Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı: "Elm" 2002, 230 s. 6. S.Sadıqova. Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları. Bakı: "Elm" 2015, 484 s. 7. S.Quliyeva. Azərbaycan dilində ədəbiyyatşünaslıq terminologiyasının nəzəri məsələləri. Bakı: "Nurlan" – 2003, 183 s. 8. Qurbanov A. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. II cilddə, II cild. Bakı: 2019 9. M.Məmmədli. Azərbaycan dialektologiyası. Bakı-2019	
Tədris metodları	**Təqdimat**	**+**
	Qruplarla iş	**+**
	Sual-cavab	**+**

Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz (%)**
	Aralıq imtahanı	Tədrisin 8-ci həftəsində "Aralıq imtahanı" keçiriləcək.	30
	Fəallıq		5
	Mətnlərlə iş və praktik tapşırıq		10+10
	Davamiyyət		5
	Final	2024-cü ilin iyun ayında final imtahanı keçiriləcək	40
	Yekun		100

Kursun təsviri	Magistratura pilləsində tədris olunacaq "Terminologiyanın əsaları" kursunda dildə yeni terminlərin keçməsini zəruriləşdirən və bu səbəbdən alınma terminlərin dildə işlənməsini labüd edən terminoloji leksikadan, müasir Azərbaycan dilinin terminoloji leksikasının nəzəri aspektlər üzrə araşdırılması məsələlərindən, terminlərin yaranma üsullarından, beynəlmiləl və alınma terminlərdən, qoşa terminlər, terminoloji lüğətlər və onların tərtibi prinsiplərindən və s. bəhs ediləcəkdir.
Kursun məqsədləri	Kursun məqsədi terminologiya sahəsində əsas; • dilin daxili imkanları və alınmalar hesabına yaranan terminlər • dialekt sözləri və ümumişlək sözlər hesabına yaranan terminlər • nitq hissələrinin terminləşməsi • semantik üsulla yaranan terminlər • kalka üsulu ilə yaranan terminlər • qoşa terminlər

	• Azərbaycan dilində alınma terminlərin semantikası • Terminoloji lüğətlər və onların tərtibi prinsipləri haqqında ətraflı məlumat verməkdir. Bundan başqa ədəbi dilin üslublarına aid nümunələrdən istifadə etməklə söz-terminlərin işlənmə məqamlarına da praktik iş olaraq müraciət olunacaqdır.
Tədrisin (öyrənmənin) nəticələri	• Müasir Azərbaycan dili terminologiyasının nəzəri əsasları ilə tanış olunacaq. • Terminlərin hansı üslubi çalarda işləndiyi müəyyənləşdiriləcək • Terminlərin leksik cəhətdən araşdırılaraq onların əsas əlamətləri, model və tipləri müəyyən ediləcək • Dilin daxili imkanları və alınmalar hesabına yaranan teminlər haqqında ətraflı məlumat veriləcək. • Dialekt sözləri və ümumişlək sözlər hesabına yaranan terminlər nümunələr əsasında diqqətə çatdırılacaq. • Nitq hissələrinin terminləşməsi, semantik üsulla yaranan terminlər, kalka üsulu ilə yaranan terminlər, qoşa terminlər, Azərbaycan dilində alınma terminlərin semantikası məsələləri haqqında ətraflı məlumat veriləcək • Terminoloji lüğətlər və onların tərtibi prinsipləri haqqında ətraflı məlumat veriləcək. • Klassik və müasir şair və yazıçıların əsərlərində terminlər silsilə şəkildə təhlil ediləcək.
Qaydalar (Tədris siyasəti və davranış)	**Fəallıq:** Bu meyara aid olan bal semestr boyunca izlənilərək final imtahanından əvvəl yazılacaqdır. Ayrılacaq 5 bal tələbənin müzakirələrdə iştirakına, sorğu zamanı daha fəal cavab verməsinə, natiqlik sənəti, yadda saxlama və yada salma kimi vərdişlərə malik olmasına, mətn təhlilində göstərdiyi fəallığa, semestr boyu həftəlik dərs proqramına hazırlaşmalarına, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə veriləcəkdir. **Mətnlərlə iş və praktik tapşırıq:** Semestr boyu keçiləcək ümumi mövzulara dair müxtəlif məzmunlu mətnlərin dil xüsusiyyətlərini yerinə yetirilməsinə görə 10 bal, praktik tapşırıqların yerinə yetirilməsinə görə 10 bal tədrisin son həftəsində, final imtahanından əvvəl yazılacaqdır. **Davamiyyət:** Bal verilən zaman tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzrsüz buraxılan hər dərs üçün 0,5 bal çıxılacaq. **İmtahan haqqında:** **Aralıq imtahanı** – 30 bal (imtahanda tələbələrin biliyi həm nəzəri suallar, həm test, həm də keçilən mövzulara aid tapşırıq və çalışmalarla yoxlanılacaqdır) **Final imtahanı** – 40 bal (mtahanda tələbələrin biliyi həm nəzəri suallar, həm test, həm də keçilən mövzulara aid tapşırıq və çalışmalarla yoxlanılacaqdır) • İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyat və internet resurslarına müraciət etmək vacibdir. • İstifadə ediləcək elmi vəsaitlərin bir qismi tərəfimizdən təmin ediləcəkdir. Aralıq və Final imtahanlarında sullar test və klassik ola bilər.

Cədvəl (dəyişdirilə bilər)

Həftə	Tarix (planlaşdırılmış)	Fənnin mövzuları	Dərslik/Tapşırıqlar
1.		Termin və terminologiya anlayışı. Terminin spesifik əlamətləri.	
2.		Termin, onun mahiyyəti və definitivləşməsi. Elmi dildə işlənən işarələr və simvolların spesifikası.	
3.		Nitq hissələrinin terminləşməsi. Termin söz birləşmələrinin nitq hissələrinə görə struktur təhlili.	
4.		Müasir Azərbaycan ədəbi dilində terminlərin yaranma üsulları. Semantik üsulla yaranan terminlər.	
5.		Morfoloji və sintaktik üsulla yaranan terminlər.	
6.		Kalka üsulu ilə yaranan terminlər. Terminologiyada abreviaturalar.	
7.		Dillərin qarşılıqlı zənginləşməsində alınmalar, onların mənimsənilməsi və yaranma mənbələri. Ərəb və fars mənşəli alınma terminlər.	N.Məmmədli. səh. 34-94

8.		**Aralıq imtahanı** Rus və Avropa dillərindən alınma terminlər	N.Məmmədli. s. 126-194
9.		Beynəlmiləl və alınma terminlərin spesifikası və onların struktur-semantik xüsusiyyətləri	N.Məmmədli. s.361-390
10.		Qoşa terminlər. Terminologiyada alınmalrın leksik funksional paralelliyi.	N.Məmmədli. s. 204-300
11.		Azərbaycan dilində alınma terminlərin semantikası	
12.		Terminoloji lüğətlər və onların tərtibi prinsipləri	M.Məmmədli. Azərbaycan dialektologiyası.s.292
13.		Lüğətlərin tərtibində sözlük problemi. Lüğətlərdə terminlərin yerləşdirilməsi.	
14.		Terminalmanın sosiolinqvistik amilləri. Dil əlaqələri və bilinqvizm.	N.Məmmədli. s.315-322
15.		Keçilənlərin təkrarı	
		Final imtahan	

TERMİNOLOGİYA

1.1. Müasir Azərbaycan ədəbi dilində terminologiyanın inkişafı və tədqiqi məsələləri Dilin inkişafı xalqın ümumi inkişaf səviyyəsi, onun elmi, ictimai və mədəni tərəqqisi ilə sıx bağlıdır. Azərbaycan dili istər funksional, istərsə də struktur baxımından zəngin dillərdən sayılır. Müasir dövrdə Azərbaycan dilinin lüğət tərkibi dəyişir, terminoloji sistemdə normalaşma prosesi qüvvətlənir. Son zamanlar ölkəmizin iqtisadi-siyasi həyatında, ictimai fikrində baş verən proseslər, yeniliklər dilin lüğət tərkibində dəyişmələrə səbəb olmuşdur. Belə ki, əvvəllər ölkəmizdə terminoloji mühiti dövlət və ictimaiyyət tərəfindən nəzarətdə saxlamaq mümkün idi. Çünki həmin vaxtlar xarici dillərdən tərcümə olunan materialların həcmi böyük deyildi, tərcümə prosesinə ciddi nəzarət olunurdu və ölkə daxilində çap materialları, xüsusi ilə dərslik və dərs vəsaitləri, müxtəlif səviyyəli ekspertiza mərhələlərindən keçirdi. Digər tərəfdən, TV-lərdə, radiolarda və digər kütləvi informasiya vasitələrində verilən materiallar digər tələblərlə yanaşı, terminoloji tələblərə cavab verməli idi. Ancaq son zamanlar dünyaya sürətlə açılan ölkəmizdə xarici KİV-lərin fəaliyyətinin genişlənməsi, internetin cəmiyyətin bütün həyatına nüfuz etməsi, insanların müxtəlif bilik sahələrinə aid məlumatları xarici dillərdən birbaşa qəbul etməsinin sürətlənməsi nəticəsində ölkədə termi- Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 9 noloji mühiti nəzarətdə saxlamaq çətinləşmişdir. İndi iqtisadiyyat və mədəniyyətin, xalq təsərrüfatının elə bir sahəsi yoxdur ki, orada terminlərdən istifadə olunmasın. Bu səbəbdən, terminoloji işi düzgün təşkil etmək, terminologiyanın inkişafını düzgün istiqamətləndirmək qarşıda duran mühüm vəzifələrdən biridir. Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsi mürəkkəb bir proses olaraq davam edir. Elmi terminologiyanın müxtəlif dillərdə inkişafı onların dünya sivilizasiyasına qovuşmasına səbəb olmuşdur. Milli dillərin terminologiyasına bir qayda olaraq dildə işlənən bütün terminlərin məcmusu kimi baxılır. Terminlər elmi-texniki kommunikasiya, müxtəlif elmitexniki kəşflər prosesində yaranır. Cəmiyyət inkişaf etdikcə, ictimai-siyasi dəyişikliklərlə bağlı dilin leksik sistemində terminlərin sayının artması zəruriləşir. Məhz buna görə də terminoloji leksikanın inkişaf sürəti ümumi leksikanın inkişafını hazırda qabaqlayır. Çünki terminoloji qatın ayrı-ayrı elm sahələrində müxtəlif anlayışları adlandırmaq ehtiyacı ümumi lüğət tərkibində yeni leksik vahidlərin yaranmasına nisbətən üstünlük təşkil edir. Azərbaycan dilində müxtəlif elm sahələrinə aid terminoloji baza dilin öz daxili imkanlarından əlavə rus və Avropa dillərindən alınmış beynəlxalq terminlər əsasında formalaşmışdır. Lakin elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminoloji sistemlərin fasiləsiz olaraq dəyişməsinə və inkişafına təsir göstərir. Ona görə də terminologiyada baş verən dəyişiklikləri diqqətlə izləmək və terminologiyanın inkişafını həmişə düzgün istiqamətləndirmək zəruridir. Belə ki, müstəqillik illərində Azərbaycan dilinin lüğət tərkibində köklü dəyişikliklər baş verir. Bu hər şeydən əvvəl Azərbaycan dilinin başqa dünya dilləri ilə birbaşa əlaqələri ilə bağlıdır. Çünki elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminoloji sistemlərin fasiləsiz olaraq dəyişməsinə və inkişafına təsir göstərir. Müxtəlif sahə terminologiyaları uzun illər dilçilər tərəfindən geniş şəkildə araşdırılmışdır. Bu baxımdan ictimaisiyasi, dilçilik, fəlsəfə, ədəbiyyat, riyaziyyat, fizika, musiqi, iqtisadiyyat, hərbi, inşaat, telekommunikasiya, hüquq, kimya, aviasiya sahə terminlərinin linqvistik təhlilləri, inkişafı, yaranma yolları, mənbələri və üsulları ilə bağlı tədqiqatlar diqqət cəlb edir [2, 5, 7, 18, 21, 24, 25, 26, 27, 29, 30, 33, 40, 50, 56, 68,74, 76, 81]. Dövrü terminologiyanı əks etdirən monoqrafiya və tədqiqatlarda dilin terminoloji sisteminin formalaşması qanunauyğunluqları, terminyaratmanın forma və üsulları, mənbələri haqqında ümumi nəzəri əsaslar tədqiq edilmişdir [28, 36,44, 53,61,73,83,84,85, 88,91,111]. S.Sadıqova əsərində terminlərin dilimizin terminoloji sistemindəki mövqeyini, yaranma üsullarını dəqiq müəyyənləşdirərək, hansı mənbələr əsasında formalaşması və inkişafını izlənilməklə bütövlükdə terminologiyanın nəzəri əsaslarını şərh etmişdir [85]. M.A.İsmayılovanın əsərində isə Azərbaycan terminologiyasının təkmilləşməsinin, unifikasiya edilməsinin, standartlaşdırılmasının nəzəri və praktik məsələləri şərh olunmuş, termin yaradıcılığının linqvistik və məntiqi linqvistik Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 11

cəhətləri aydınlaşdırılmaqla bərabər, terminoloji tədqiqatların kompleks şəkildə aparılması metodikası da verilmişdir [44]. A.Hacıyevin "Azərbaycan dilində termin yaradıcılığı" adlı tədqiqat işində 1950-1990-cı illərdə Azərbaycan dilində termin yaradıcılığı prosesinin izlənilməsi məhz ilk dəfə öz əksini tapmış, terminoloji leksika həm tarixilik, həm müasirlik, həm də nəzəri və praktik cəhətdən tədqiqata cəlb edilmişdir. 1950- 1990-cı illərdə həm milli dil hesabına yaranan, həm dilimizə başqa dillərdən keçən terminlərin, həmçinin söz-termin yaradıcılığı ilə bağlı bəzi məsələlərin şərhi dissertasiyada öz əksini tapmışdır [28]. T.Quliyevin tədqiqat işində isə bütövlükdə 1920-1990-cı illərdə Azərbaycan ədəbi dilində gedən leksik-terminoloji yeniləşmə prosesi, dilimizin daxili imkanları hesabına leksikterminoloji yeniləşmədə alınma problemi və əvəzetmə meylləri ilk dəfə olaraq araşdırılmışdır [53]. Terminşünaslığın elmi-nəzəri və əməli məsələlərinə dair doktorluq və namizədlik dissertasiyaları, elmin müasir səviyyəsini əks etdirən dəyərli araşdırmalar və təkliflər bu elm sahəsinin böyük perspektivlərə malik olmasını, onun ayrı-ayrı problemlərinə dair tədqiqatların aparılmasına ehtiyac olduğunu bir daha sübut edir. Elmi-texniki tərəqqinin hazırkı mərhələsində mülki aviasiyanın müxtəlif sahələrinə aid terminlərin tədqiqi, onların yaranma və işlənmə xüsusiyyətlərinin dəqiqləşdirilməsi, nizama salınması, unifikasiyası və standartlaşdırılmasının həlli son dərəcə vacib məsələlərdən birinə çevrilmişdir. Bu baxımdans. M.Əliyevanın "İngilis və Azərbaycan dillərində aviasiya terminlərinin struktur-semantik və funksional təhlili", M.Musayevanın "Azərbaycan dilində mülki aviasiya terminlərinin formalaşmasında tərcümənin rolu" adlı monoqrafiyaları diqqəti cəlb edir [24,76]. M.Musayeva monoqrafiyada aviasiya terminlərinin spesifik xüsusiyyətləri, yaranma yolları, formalaşmasında tərcümənin rolu və mənbələrini nəzəri aspektdə araşdırmışdır. Bu sahə daim inkişafdadır və yeni yaranan terminlər struktur cəhətdən diqqəti cəlb edir. Terminologiya elmin, texnikanın, istehsalatın, sənaye və kənd təsərrüfatının, ədəbiyyat və incəsənətin, iqtisadiyyat, ictimai-siyasi həyatın müxtəlif sahələrinə məxsus anlayışları dəqiq və dürüst ifadə edən xüsusi funksiyalı leksikanı əhatə edir. Terminologiya leksikologiyanın ən fəal, dəyişkən, artan, təkmilləşən, yeniləşən hissəsi olmaqla yanaşı, sosial-iqtisadi inkişaf, elmi texniki tərəqqi, mədəni inqilab, istehsalın intensivləşməsi nəticəsində yaranan çoxlu sayda elmi səciyyəli sözlərin toplum olaraq yaratdığı sistemdir. Yəni dilin leksik qatının xüsusi funksiyalı hissəsini təşkil edən vahidlər terminoloji sistem yaradır. Bu sistemə daxil olan sözlər fərqli xüsusiyyətləri, spesifik əlamətləri ilə digər sözlərdən seçilir və dilin elmi üslubunun formalaşmasında başlıca rol oynayır. Son dövrlər ölkə iqtisadiyyatında aparılan iqtisadi islahatlar bankmaliyyə fəaliyyətinin inkişaf xüsusiyyətlərinə və terminoloji bazasına təsirini göstərir, onun fasiləsiz dəyişməsini tələb edir. Bazar iqtisadiyyatına keçidlə bağlı iqtisadi-siyasi terminologiyaya aid dilimizin lüğət tərkibinə yeni terminlər daxil olmuşdur. Bu sahədə işlənən terminlərin böyük qismi ana dilimizdə işlənən sözlərdir: borc, gəlir, bazar, xidmət, iştirakçı Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 13 və s. Ancaq bununla yanaşı iqtisadi sahədə kalka yolu ilə yaradılan terminlər də üstünlük təşkil edir. Məsələn, səhmdar, sifarişçi, ödəmə və s. Avropa dillərindən alınan terminlərin əksəriyyəti beynəlxalq səciyyə daşımaqla yanaşı, mənbə dildə olduğu kimi işlənir: bank, audit, dividend və s. Qloballaşan dünyada universallıq meyli hər sahədə olduğu kimi, iqtisadiyyat terminologiya və anlayışlar sahəsində də xüsusilə özünü büruzə verir. Təbii ki, milliyyətindən və dilindən asılı olmayaraq, dünyanın hər bir vətəndaşı üçün internet, kompüter, e-mail və s. terminlər o qədər doğmadır ki, onları ana dilinə tərcümə etmək haqqında çox az sayda adam düşünür. Bu qəbildən olan dövlət maliyyəsi sahəsində bir sıra populyar anlayışları, məsələn, büdcə, bank, birja və s. kimi terminləri göstərmək olar. Amma bununla yanaşı, dövlət maliyyəsi sahəsi o qədər zəngin və mürəkkəbdir ki, burada çoxsaylı mürəkkəb anlayışları ifadə edən terminlər də mövcuddur. Cəmiyyətin bütün sahələrini getdikcə daha çox əhatə edən daşınma axınlarının inkişafı nəticəsində yeni texnologiyalara ciddi maraq yaranmışdır. Bununla da logistika elminin yüksək sürətlə inkişaf etməsi bu sahədə işlənən və yeni meydana çıxan anlayışların ifadəsi olan terminlərin sayının da sürətlə artmasına səbəb olmuşdur. Bu sahədə işlənən terminlərin əksəriyyətini milli sözlər (çıxarılma, çıxış, cürbəcür, dəyişdirilmə, bağlantı, ailə, etibarlılıq, yük, yükalan, anbar və s.) təşkil etsə də, rus, xüsusilə ingilis dilli (dok, dok-tu-stok, agent, autsayder, autsorsinq, biq-beq, implosion, indossament, inkoterm, hedc və s.) terminlər də çoxluq təşkil edir. Müasir dövrdə inşaat işləri sahəsində beynəlxalq əməkdaşlıq vüsət almışdır. Bu baxımdan informasiya mübadiləsi aparılarkən yeni terminlərin istifadə edilməsinə xüsusi diqqətlə yanaşmaq tələb olunur. Hazırkı dövrdə Azərbaycan Respublikasında xarici investisiya hesabına icra olunan inşaat işlərinin miqyasının artması yeni anlayışların yaranmasına səbəb olmuşdur. Yeni anlayış-yeni söz və bir çox hallarda yeni termin deməkdir. Araşdırmalara əsasən, inşaat sahəsində ingilis terminologiyasından istifadə açıq aydın nəzərə çarpsa da, layihələrdə texniki terminlərin daha çox rus dilində çap edilməsi bu sahədə rus dilli terminlərin daxil olmasına da səbəb olmuşdur. İlk dəfə T.Xəlilova "Azərbaycan dilində inşaat terminlərinin linqvistik təhlili" adlı namizədlik dissertasiyasında inşaata aid terminoloji leksika həm tarixilik və müasirlik baxımından, həm də nəzəri və praktik aspektdə tədqiq olunmuşdur. İnşaat terminlərinin yaranma üsulları, mənbələri, formalaşması monoqrafik tədqiqata cəlb olunmuş, onların ədəbi dildə normalaşması prosesi izlənilmişdir [40]. İnşaat terminləri üzərində aparılan linqvistik təhlillərin nəticəsi olaraq bu qənaətə

gəlinir ki, “yeni terminlərin yaradılmasında semantik, morfoloji, sintaktik, kalka və abreviatura üsullarından istifadə edilir. Bu sahədə abreviatura üsulundan ən az istifadə edilir. Yaranan terminlərin əksəriyyəti rus dilindən və rus dili vasitəsi ilə Avropa dillərindən leksik, morfoloji və sintaktik birləşmələr variantında kalka olunmuşdur” [40,s.126]. Respublikamızda ordu quruculuğu işinin sürətlə və keyfiyyətlə yerinə yetirilməsi günün ən vacib məsələlərindən biridir. Müasir dövrdə dünya dövlətləri ilə diplomatiya və hərbi Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 15 əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilmiş, ordu quruculuğu işində mühüm addımlar atılmışdır. Müasir dövrdə ballistika, artilleriya, hava hücumundan müdafiə, hərbi təbabət, diplomatiya və s. ilə bağlı xeyli sayda terminlər işlənir. Hərbi terminologiyanın birinci yolu milli dil vahidlərinin terminləşməsidir. Azərbaycan dilində ümumişlək leksik vahid olan daraq, bölmə, tırtıl, məqsəd, vasitə, idarə və s. kimi sözlər müəyyən oxşarlıq və mahiyyətcə yaxınlıq nəticəsində hərbi terminoloji qata daxil olmuşdur. Hərbi terminologiyanın zənginləşməsi prosesində ingilis dili də fəaldır və bu dildən xeyli sayda dilə alınma hərbi terminlər keçmişdir. Məsələn: kazual, brezent, katapulta, kamuflyaj, kavitasiya, qaubitsa və s. İ.Qasımov yazır: “Son dövrlərdə söz birləşməsi şəklində və ikidən daha çox sözün birliyindən yaranan çoxkomponentli hərbi terminlərin yaranması daha xarakterikdir. Bu tipli hərbi termin-söz birləşmələrinə dəniz piyadası briqadası, alay təbliğatçısı, cəbhə qırıcı təyyarəsi, aviasiya alayı və s. terminləri misal göstərmək olar” [186,s.6]. Abreviasiya və ya sözlərin qısaldılması mövcud çoxkomponentli dil vahidlərinin ən qısa formalarla əvəz edilməsidir. Bu üsuldan hərbi terminologiyada da istifadə olunur. Məsələn, HHQ, HHM, HSK və s. Hərbi sahənin durmadan inkişafı dilin lüğət tərkibində zənginləşmə, yeniləşmə prosesinin baş verməsinə səbəb olur, bu baxımdan, hərbi sahənin tədqiqi müasir dövrdə aktual problemlərdən hesab olunur. Elm və incəsənətdə, təbiət, cəmiyyət və insan psixologiyasında baş verən hadisə və təzahürləri, texnoloji prosesləri dəqiq ifadə etməli olan terminlər sürətlə inkişaf edən sahələrdə özünü daha çox göstərir. Kino, teleradio istehsalı və yayım texnologiyasının inkişafı ilə bağlı xarici dillərdə yaranan saysız-hesabsız terminlər sürətlə Azərbaycan dilinin lüğət fonduna daxil olur. Tərcümə yolu ilə alınan terminlər bu sahədə üstünlük təşkil edir, məsələn: time-table- iş cədvəli, work station-işçi stansiya, light image-işıq təsviri, primary frame-ilkin kadr; Bu baxımdan “müasir şəraitdə televiziyanın cəmiyyət həyatına və insanların şüuruna təsirinin artdığı bir vaxtda bu elektron informasiya vasitəsinin spesifik dil sisteminin hərtərəfli öyrənilməsi getdikcə aktuallaşır” [192,s.6]. İqtisadi, sosial, mədəni və digər sahələrdə olduğu kimi elm və təhsil sahəsində də mühüm nailiyyətlər əldə edilmişdir. Aeronaviqasiya təminatı, meteorologiya, radiomübadilə, hava gəmiləri və aeroport avadanlıqları ilə bağlı xeyli sayda terminlər dilə daxil olmuşdur. Bu sahədə də üstünlüyü tərcümə yolu ilə alınan terminlər təşkil edir. Bu səbəbdən aviasiya sahəsində mürəkkəb söz birləşməsi şəklində terminlər çoxluq təşkil edir. Məsələn: hava gəmisinin mühərriki, mövqeyi təyinetmə vasitəsi, yardımçı hava gəmisi, orta yükləmə əmsalı, təsir zonasının orta radiusu; I növ təyini söz birləşməsi şəklində: əsas reys, şüa mərkəzi, şəffaf buz, zolaqlı filtr; II növ təyini söz birləşməsi şəklində: qum boranı, çarter daşıyıcısı, işıq üfüqü və s. III növ təyini söz birləşməsi şəklində: şüanın zəifləməsi, şüanın eni; Terminlərin tərcüməsi zamanı aviasiya terminlərinin rus, fransız və türk dillərində tərcümələri təcrübəsindən istifadə edilmişdir. Alınma terminlərə bütün elmi Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 17 sahələrdə olduğu kimi aviasiya sahəsində də rast gəlinir. Məsələn, eleron, kontur, xorda, klirens, demodulyator, deinterlearer, deskrebler və s. Bu sahədə abreviatura şəkilli terminlər digər elmi sahələrə nisbətən daha çoxdur. Məsələn: ATIS-radioyayım məlumatı, HHX-marşurutun indeksi, ATNistiqamət göstəricisi, CAT, CAS; Həm ümumi leksik fond, həm də terminoloji leksika iki mənbə hesabına dilin daxili imkanları hesabına və sözalma yolu ilə zənginləşir. Bu da dilin bütövlükdə leksik sisteminin zənginləşmə qanunauyğunluqları ilə eyniyyət təşkil edir. Milli dil əsasında termin yaradıcılığı prosesi daim terminologiyanın inkişafında əsas mənbə olmuşdur. Hal-hazırda mövcud sözlərin yeni məna ifadə etməsi ilə yeni yaranan anlayışların ifadə vasitələrinin müəyyənləşməsi ən məhsuldar üsullardan biridir. Belə ki, müasir Azərbaycan dilində kənd təsərrüfatı, coğrafiya, geologiya, həmçinin başqa sahələrə aid terminologiyanın təkmilləşməsi və zənginləşməsi üçün əsas mənbələrdən biri dialekt və şivələrdir. Azərbaycanda qədim zamanlardan əkinçilik, heyvandarlıq, bağçılıq, ipəkçilik, toxuculuq, sənətkarlıq kimi sahələr geniş inkişaf etdiyindən Azərbaycan dilinin dialektlərində müxtəlif peşə və sənətlərə aid texniki alət və vasitələrlə bağlı çoxlu sözlər işlədilmiş və indi də işlədilməkdədir. Ona görə də bu sahələrə aid anlayışların adlandırılmasında dialektlərdə işlədilən söz və ifadələrdən istifadə olunmuşdur. Xüsusilə, son dövrlərdə terminoloji lüğətlərin tərtibi zamanı dialektlərə məxsus söz və ifadələrə daha çox yer ayrılmışdır. Məsələn, heyvandarlığa, torpaqşünaslığa, coğrafiyaya aid terminoloji lüğətlərdə bir sıra dölçə, kədi, ödək, mağal, bozaq, burma, çilləmə, göycə, acıqovun və s. dialekt sözləri termin kimi işlənmişdir. Bu lüğətlərdə dialekt və şivələrdən termin kimi işlətmək üçün sözlər götürülərkən müəyyən prinsiplər gözlənilmiş, eyni məfhumun ifadəsi üçün müxtəlif dialektlərdə müxtəlif sözlər işlədilsə də, belə sözlərdən daha əlverişlisi, nəzərdə tutulan məfhumu daha dəqiq ifadə edəni seçilmişdir. Elmi terminologiyanın inkişafı üçün xalq dilinin dərindən öyrənilməsi zəruridir. Dilimizi yad təsirlərin qalıqlarından təmizləmək üçün, ilk növbədə, xalq dilinə müraciət etmək ən

doğru seçimdir. Belə ki, terminologiyaya daxil olan terminlərin bir qismi müəyyən mühitdə dialekt vahid olsa da, bu mühitdən kənarda xüsusi funksiya daşıyan elmi səciyyəli sözə çevrilir. Müasir Azərbaycan dilində terminoloji sistemin təhlili göstərir ki, bir çox terminoloji sahələrdə dialekt sözlərin terminləşməsi ilə bağlı yaranmış çoxlu sayda terminoloji vahidlər mövcuddur. Lakin terminlər dialekt sözlərindən öz funksiyasına və işlənmə xüsusiyyətlərinə görə fərqlənir. Dialekt sözləri hesabına anlayışların yaranması həm başqa dillərdən söz alınmasının qarşısını alır, həm də həmin məfhumların dildə asan ifadə olunmasına şərait yaradır. Bu proses dilin lüğət fondu tərkibində baş verir və yaranan hər yeni termin-sözlə lüğət tərkibi keyfiyyətcə zənginləşir. Müasir dövrdə yeni texnologiyaların genişlənməsi ilə bağlı olaraq dilin daxili imkanları hesabına söz yaradıcılığına şərait yaranmışdır. Semantik üsulla terminoloji leksikanın inkişaf prosesində dil vahidləri təkmənalılıqdan omonimliyə doğru inkişaf edir. Bu zaman ümumişlək söz əvvəlki mənasından Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 19 uzaqlaşaraq tamamilə yeni mənada terminləşir. Beləliklə, sözlər səs tərkibi, formaca sabit qalmaq şərti ilə yeni mənalardan əlavə terminoloji mənalar da qazanır, məsələn: qırış sözü ümumişlək söz kimi "bir şeyin büküldüyü və qatlandığı yerdə qalan iz", maliyyə sahəsində "investorlar üçün maraq doğuran, onların diqqətini çəkən maliyyə innovasiyası, maliyyə bazarında qeyri-adi hadisə"dir. Müasir Azərbaycan dilində terminlər üzərində aparılan müşahidələr göstərir ki, semantik üsulla formalaşmış terminlərin əksəriyyəti qrammatik mənsubiyyətinə görə isimdirlər. Həmçinin bu isimlərin hamısı ümumişlək sözlərdir və semantik inkişaf nəticəsində termin funksiyasında işlənirlər. "Elmi-texniki inkişaf nəticəsində meydana çıxan anlayışları yeni sözlərlə ifadə etmək əvəzinə, dilin daxili imkanlarına əsaslanaraq lüğət tərkibində işlənən sözlərə yeni semantik məna vermək daha məqsədəuyğundur" [53,s.54]. Semantik üsuldan hazırda geniş şəkildə istifadə olunur. Daha doğrusu, müasir ədəbi dillərin terminologiyasında sözlərin mənasının dəyişdirilməsi üsulu geniş tətbiq olunur. Hazırda elm və texnikanın ayrı-ayrı sahələrində bu üsullarla yaranmış terminlər çoxdur. Hamıya məlum olan Azərbaycan sözlərindən terminlər yaratmaq, yaxud onlardan termin kimi istifadə edilməsi daha məqsədəuyğundur. Çünki Azərbaycan dilində terminologiyanın yaradılması və zənginləşməsi üçün ən əlverişli yol dilin daxili imkanları əsasında terminlərin yaradılmasıdır. Müasir Azərbaycan dilində terminoloji sistemin təhlili göstərir ki, bütün terminoloji sahələrdə ümumişlək sözlərin terminləşməsi ilə bağlı yaranmış çoxlu sayda terminoloji vahidlər mövcuddur. Dilin daxili imkanları hesabına termin yaradıcılığı prosesində kalkalar müasir dövrdə istifadə olunan üsullardandır. Kalkaetmə prosesinin öyrənilməsi ictimai-siyasi əhəmiyyət kəsb edən dil əlaqələrinin tədqiqi probleminin bir tərkib hissəsidir. Bu prosesin öyrənilməsi, həmçinin müasir dildə baş verən hadisələrin təhlili və tədbiqi ilə bir həmahənglik təşkil edir. Bu baxımdan X.V.Quliyevanın "Rus dilindən Azərbaycan dilinə kalkaetmə yolları" adlı monoqrafiyası kalkaların yaranmasını şərtləndirən dildaxili və dilxarici amillər, kalkaların çoxaspektli xüsusiyyətləri təhlil olunması baxımından diqqəti cəlb edir. O yazır: "Kalkalaşma meyli müasir dövrdə sözalmaya nisbətən xüsusilə fəaldır. Çünki yeni sözlərin əsas qismi mətbuatda işlənir, ümumişlək səciyyə qazana bilmir. Ona görə də təbii yolla həmin sözlərin kalkasının yaradılmasına zərurət əmələ gəlir" [54,s.113]. Azərbaycan dilində kalka yolu ilə termin-söz birləşmələri yaradılarkən həm dilimizin terminlərindən, həm də sözdüzəldici şəkilçilərindən geniş istifadə olunur. Hal-hazırda kalka üsulu ilə yaradılan yeni termin-söz birləşmələrinin miqdarı daha çoxdur. Bu üsulla yaradılan terminlərin böyük bir qismini sintaktik yolla əmələ gələn terminlər təşkil edir. Məsələn: aralıq istehlak, artırılmış balans, bilik iqtisadiyyatı, borc neytrallığı və s. Terminologiyada kalka üsulu ilə yaradılan terminlərin üstünlük təşkil etməsi elmlərin inkişafı, bir-birinə inteqrasiya etməsi, müstəqillik qazandıqdan sonra başqa ölkələrlə azad, siyasi, iqtisadi əlaqələrin artması ilə bağlıdır. Tərcümə üsulu ilə termin yaradıcılığı prosesi müasir dildə ən çox müraciət olunan üsullardandır. Son dövrlər bir çox elmi Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 21 sahələrdə terminlərin ingilis dilindən tərcümə olunaraq mənimsənilməsi prosesi müşahidə olunur: administratorinzibatçı, hot keys- qaynar klavişlər, mause-siçan, drunk mouse-sərxoş (tutqun) maus və s. Söz və anlayış arasında assosiativ əlaqə termin yaradıcılığının mərkəzində dayanır. Termin anlayışa uyğun gəlmədikdə onu yeni terminlə əvəzləmə zərurəti yaranır. S.Sadıqova yazır: "sərxoş maus-kompüter mausunun kontakt şarının tutulması və ya çirklənməsi zamanı mausa verilən addır. Burda işlənən "sərxoş" termini anlayışı düzgün ifadə etmədiyinə görə "tutqun" termini ilə əvəz etmək daha münasibdir. Çünki anlayışlar adlandırılarkən terminlə anlayış arasındakı uyğunluqlar nəzərə alınmalıdır" [204,s.5]. Alınma sözün milli vahidlərlə əvəz olunması o zaman uğurlu olur ki, yeni yaranan söz struktur və semantik baxımından alınma sözü tam ifadə edə bilsin.s.Quliyeva yazır: "Semantik və struktur normalar pozulduğu halda əvəzolunma məqsədi ilə yaradılan terminlər mənimsənilmir, varianta, sinonimə, paralelə və ya dubletə çevrilir" [55,s.41]. Elm və texniki kəşflərin çoxluğu alınma terminlərin yaranmasına səbəb olur. Son illər kompüter və texnologiya sahələrinin inkişafı ilə əlaqədar terminologiyada yüzlərlə anlayış, məfhum yaranmışdır. Bu məfhumları ifadə edən terminlərin bir çoxu başqa dildə necə işlənirsə, eləcə də alınıb işlədilir. Məs.: internet, ZIP, dog tag, disk, adapter, 3G, tester, spam, modem, punktir, aplet, sensor, eqosörfinq, coystik, eksployt, friker, sniffer, bruter, mantissa, teq, ossiloskop; Göründüyü kimi, nümunədəki sözlər alındığı dildə olduğu

kimi reseptor dildə də işlənir və onun qarşılığı olmur. Alınmaterminlərin digər qismi isə dilin fonetik, qrafik, qrammatik normalarına uyğun olaraq mənimsənilir. Son dövrlər alınma terminlərin mənimsənilməsi prosesində transkripsiya və transliterasiya ən çox müraciət olunan vasitələrdir. Hər bir söz transliterasiya edilərkən ana dilinin tələbləri-tələffüz və qrammatik cəhətləri, yazının isə qrafik xüsusiyyətləri nəzərə alınır. Veb-brauzer, vay-fay, tvist, tvitter, skayp, skrinşot, selfi və s. tipli sözlər milli dildə bu üsul vasitəsilə mənimsənilmişdir. Bir qrup alınma terminlər isə transkripsiya olunaraq mənbə dildəki formasını itirərək fonetik dəyişikliyə məruz qalırlar: veb-sayt, tyutor, stəndap, qap, keş və s. Bu prosesin mahiyyəti haqqında A.Qurbanov yazır: "Tədqiqatlar, elmi nəticələr də sübut edir ki, fonetik transkripsiyadan məharətlə istifadə olunması hər bir dilin incəliyi ilə eşidilməsinə, duyulmasına və qavranılmasına kömək edir" [60,s.447]. Bəzi alınma terminlərin milli dildə qarşılıqları var. Fikrimizcə, bu tip alınma terminləri işlətməyə ehtiyac yoxdur. Məsələn, virtual-mümkün, mobil- sürətli, informator-məlumat verən, informasiya- məlumat-xəbər, plenar-geniş və s. İ.Abdullayeva bu cür hallara münasibətdə haqlı olaraq qeyd edir ki, dilə biganə yanaşmaq olmaz. Dilin lüğət tərkibində olduğu halda digər sözlərin dilə daxil olması həm onun saflığına xələl gətirir, həm də sadə xalq nümayəndələri üçün onu çətin anlaşılan edir" [3,s.24]. Zənnimizcə, yalnız ehtiyac duyulduqda alınma söz və terminlərə müraciət olunmalıdır. Alınma terminlərin özünəməxsus struktur xüsusiyyətləri vardır. Onlardan bir qismi mənbə dildə sadə, digərləri isə Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 23 düzəltmə və mürəkkəb konstruksiyalı vahidlərdən ibarətdir. Mənbə dildə istər sadə, istərsə də düzəltmə, yaxud mürəkkəb quruluşlu terminlər Azərbaycan dilinə sadə leksik vahidlər kimi daxil olur. Terminologiyanın təkmilləşdirilməsi prosesində ayrı-ayrı terminlərin qarşılığı dəqiqləşdirilməli, dilimizin söz yaradıcılığı modelinə uyğun gəlməyən terminlər yeni söz ilə əvəz edilməlidir. Alınma və dilin özünəməxsus sözlərinin paralel işlənməsi terminlərdə sinonimlik hadisəsinin yaranmasına səbəb olur. Əslində, bu proses sinonimlik yox, paralellik kimi izah olunur. Çünki sinonimlər dildə bərabərhüquqlu işlənir, biri digərini sıxışdırıb çıxarmır. Terminoloji sahədə işlənən paralellərdə isə bu proses nisbətən fərqlidir və tədricən daha çox işlək olan variantlar dildə sabitləşir. Məsələn, kompüter və bilgisayar terminləri eyni anlayışı ifadə edirdilər. Ancaq müasir dildə məhz kompüter sözü elmi termin kimi sabitləşdi. Terminologiyada bu proses anlayışın mahiyyətini əks etdirən terminin tam formalaşmasına qədər davam edir. Belə ki, nəticədə hansı terminin işlənmə tezliyi dildə artırsa, terminoloji leksikada o yer alır. Dildə asan qavranılan anlayışları dəqiq ifadə edən termin varsa, başqa sinonimləri işlətmək dildə ağırlığa və dolaşıqlığa səbəb olur. "Yersiz işlənən hər bir leksik ünsür daxil olduğu dilin inkişafına maneçilik törədib, onun milli ahəngini poza bilir. Odur ki, əcnəbi dillərdən termin götürərkən onu dilimizin qayda-qanunlarına tam uyğunlaşdırıb işlətmək üsulunu ön plana çəkmək lazımdır" [55,s.75]. Bütün deyilənləri ümumiləşdirsək, müasir Azərbaycan dilinin terminoloji leksikasının inkişaf istiqamətləri dilin daxili imkanları, eləcə də alınmalar olmaqla iki yerə bölünür.S.A.Sadıqova Azərbaycan dilinin terminoloji leksikasını yalnız termin kimi işlənənlər və həm ümumişlək söz, həm də termin kimi işlənənlər olmaqla iki qrupa ayırır. [85,s.117] Demək, müasir Azərbaycan dilində terminoloji leksikanı aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Həm ümumişlək, həm termin kimi işlənən sözlər: tələbat, uyğunlaşma, yüklənmə, yükləyici, yazı; 2. Yalnız termin kimi işlənən sözlər: admin, adarme, autizm, dilinq, domen, sloqan; a. Bir neçə sahə üzrə xüsusiləşmiş terminlər: relaksasiya, qroteks, fiksiya, breyk, kastinq; b. Yalnız bir sahə üzrə xüsusiləşmiş terminlər: ağdiş, bayt, baybek, kiker, printer; c. Müəyyən elmi sahə üzrə bir neçə məna ifadə edən terminlər: rekvizisiya, rekuperasiya, reqres, adapter, diler, banner, deqradasiya, diskont, inteqrator, kart. Müasir dövrdə nəşr olunan qəzet və jurnallarda daha çox Avropa mənşəli terminlər işlənsə də, türk mənşəli terminlərin işlədilməsinə də meyl güclənmişdir. Hətta bir çox alınma terminlərin milli dildə qarşılığı yaranmış və işləklik qazanmışdır. S.Sadıqova yazır: "Bu dövrdə yaranmış texniki anlayışları bildirən tıxac, sıxac, bağlanc, süzgəc, üzlük, yorğunluq, kövrəklik, çəkisizlik kimi terminlər dildə işləklik qazanmışdır" [88,s.5]. 90-cı illərdə publisistik üslubun lüğət tərkibini səciyyələndirən mühüm cəhətlərdən biri də mətbuata xeyli miqdarda türk sözlərinin axınıdır, məsələn: olay, gündəm, ilgi, sonuc, özəl, yatırım, bəstəçi və s. Son dövrlər Türkiyə Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 25 türkcəsindən yeni söz və ifadələrin alınması diqqəti daha çox çəkməkdədir. "90-cı illərdən sonra Türkiyə Respublikası ilə əlaqələrin genişlənməsi, gediş-gəlişin intensivliyi, Türkiyə televiziya kanallarının Azərbaycanda geniş yayımı türk sözlərinin dilimizə keçməsinə səbəb olmuşdur" [66,s.96]. Bu alınmalar Türkiyə və Azərbaycan türkcələrində yeni yaranan sosiolinqvistik şərtlərə əsaslanır: xüsusi-özəl, iclas-toplantı, mənbə-qaynaq, hadisə-olay, nəşr-yayım//yayın, müasir-çağdaş, dövr-dönəm və s. Yeni-yeni anlayışlar meydana gəlib inkişaf etdikcə mövcud terminologiyada da dəyişikliklərin olması təbiidir və bu prosesin qarşısını almaq mümkün deyil. "Türkiyə türkcəsində -sal, -səl şəkilçisi vasitəsilə sözyaratma nümunələrinin bəzilərinə bizim dildə də rast gəlinir. Həmin dildə işlənən kumsal, rakamsal leksik vahidlərinin qarşılığı olaraq milli dildə qumsal, rəqəmsal sözləri işlənir. Hətta rəqəmsal sözü dildə termin yaradıcılığı prosesində iştirak etmiş və onun əsnasında rəqəmsal imza, rəqəmsal video texniki terminləri yaranmışdır. "Terminlər sistemində millilik prinsipinin pozulması tez-tez təsadüf olunur. Türk

dillərinin əksəriyyətində, o cümlədən, Türkiyə türkcəsində millilik daha qabarıq görünür" [66,s.153]. Beləliklə, qohum xalqların dil təcrübəsindən istifadə etmək termin və terminologiya problemlərinin inkişaf etdirilməsində xüsusi əhəmiyyət kəsb edə bilər. Yeni sözlərin, terminlərin işləklik qazanmasında, cəmiyyətə çatdırılmasında mətbuatın rolu danılmazdır. Müasir mətbuatda terminlərin bir çoxu Avropa dillərində olduğu kimi işlənir, bir qismi isə dilimizə tərcümə edilir. Azərbaycan dövlətinin əldə etdiyi müstəqillik bizim dünyaya inteqrasiyamızı sürətləndirdiyi üçün son illərdə dilimizə çoxlu alınma terminlər keçmişdir, məsələn: infrastruktur, qrant, treninq, telekommunikasiya, multikultirializm, trans, tempus, lizinq və s. "Fond tərəfindən maliyyələşdirilmiş güzəştli kreditlər hesabına 2014-cü ildə 39 iri istehsal, emal və infrastruktur müəssisəsi istifadəyə verilmişdir." "Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit toxum, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdir. (Respublika 19 aprel, 2015-ci il №082 (5243) səh.1) " Avropa standartları çərçivəsində təhsil sahəsində təcrübə mübadiləsi, təhsil sistemlərinin təkmilləşdirilməsi, peşəkarlıq treninqleri, xaricdə təhsil və digər mühüm islahatları əhatə edir". (Elm, 23 yanvar 2015-ci il, №02(1119) Terminlərin çox işlək olması onların ümumişlək vahidə çevrilməsinə səbəb olur. Məsələn: kredit, bank, bankomat, kreditor, biznes; Bu proses ictimai-siyasi terminologiyada daha çox müşahidə olunur. Terminin determinləşməsi onun dilin müxtəlif üslublarında işlənərək ümumişlək söz funksiyasını yerinə yetirməsinə səbəb olur. Belə prosesi keçən terminlər ümumişlək sözə çevrilərək dili zənginləşdirən vasitə olurlar. "İlk baxışda sırf termin kimi nəzərə dəyən texniki leksikanın qısa müddətdə ümumişlək sözlərə çevrilməsi buna əyani sübutdur" [7,s.118]. Müasir Azərbaycan dilində terminlər quruluşlarına görə müxtəlifdir. Dilimizdə sadə, düzəltmə, mürəkkəb terminlərlə Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 27 yanaşı, söz birləşməsi şəklində və tərkibi terminlərə də rast gəlinir. Sadə terminlər: cavab, xidmət, imkan, ünvan, vücud; düzəltmə terminlər: daşıyıcı, istifadəçi, izləmə, qovuşma, qaytarılma, sözçü, vasitəçi, sövdələşmə, yüklənmə, yükləyici; mürəkkəb terminlər: havatoplayıcı, özütuşlanan, özünüidarəetmə, satınalma, işəsalma; söz birləşməsi şəklində terminlər: özxərcini ödəmə, qəti qiymət, qoşa səhmlər, məlumatların vizualizasiyası, mənfi ismarıc, onlayn xidmət, yadda saxlama və s. Terminologiyanın təkmilləşməsi yollarından ən başlıcası müxtəlif sahələr üzrə terminoloji lüğətlərin yaradılmasıdır. Azərbaycan dilində elmi terminologiyanın yaradılmasında terminoloji lüğətlərin böyük rolu olmuşdur. Son dövrlər nəşr olunan ikidilli və çoxdilli terminoloji lüğətlər əksər hallarda beynəlxalq dil hesab olunan ingilis dili və milli dil əsasında qurulmuşdur. Müasir dövrdə nəşr olunan lüğətləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1. İngilis dilinə məxsus terminlərin yalnız konkret qarşılığı göstərilən lüğətlər; 2. İngilis dilində işlənən terminlərin konkret qarşılığı göstərilməklə bərabər, onların qısa izahı da verilən lüğətlər; Bu tip lüğətləri ikidilli izahlı lüğətlər də adlandırmaq olar. "Müxtəlif sahələr üzrə nəşr olunmuş terminoloji lüğətlərin əsas hissəsini, əsasən keçən əsrin 50-60-cı illərindən sonrakı lüğətlər təşkil edir. Hazırda isə həmin lüğətlər daha da təkmilləşdirilmiş formada nəşr olunur" [3,s.25]. Son dövrlər Terminologiya Komissiyasının qərarı ilə T.Xəlilova "Azərbaycan dilində izahlı inşaat terminləri lüğəti", Q.Məşədiyev, N.Seyidəliyev "İzahlı onomastik terminlər lüğəti", A.Q.Ağayev "Maliyyə terminlərinin izahlı lüğəti", "İzahlı iqtisadi terminlər lüğəti" II cilddə, Q.Məhərrəmli "Mediada işlənən alınma terminlərin izahlı lüğəti", "Jurnalistika terminləri lüğəti", Q.Əliyev, A.Rüstəmova "İzahlı diplomatiya terminləri lüğəti", N.Əliyeva, R.Şərifov, C.Əhmədov "İnformatika terminlərinin izahlı lüğəti", R.Sədirxanov, R.Həsənov "Bank-maliyyə terminlərinin izahlı lüğəti", R.Məmmədli "İngiliscə-azərbaycanca izahlı kompüter terminləri lüğəti", S.N.Alimetov, N.B.Məmmədli, Ş.S.İbrahimova, A.S.Alimetov "Tibb terminləri və klinik simptomlar lüğəti", "İnşaat terminləri lüğəti (ingiliscə-rusca-azərbaycanca)" (tərtibçilər: İ.H.Bəhərçinov, Ş.H.Həsənov, N.M.Qaraisayev, Ş.H.Xəlilli), A.İsmayılov "Kütləvi informasiya vasitələrində işlənən terminlər lüğəti", "Logistika terminlərinin izahlı lüğət"i (redaktor: akademik A.Paşayev; tərtibçilər: Elman Nəcəfov, Ənvər Həzərxanov, Azər Qurbanov, Heydər Turabov, Məlahət Mənsimli, Emin Qasımov, Könül Hüseynova, Polad İsmayılov), S.Sadıqova , S.Quliyeva "İzahlı terminlər lüğəti", İsmayıl Calallı "İnformatika terminlərinin izahlı lüğəti" nəşr olunmuşdur. Son dövrlər nəşr olunan ikidilli lüğətlər sırasında "İngiliscə-azərbaycanca izahlı kompüter terminləri lüğəti" diqqətə layiqdir. Lüğətdə internet, kompüter və informasiya, kommunikasiya, texnologiya sahəsində ən çox işlədilən söz, ifadə və xüsusi terminlərin ingiliscə açılışı və azərbaycanca qarşılığı verilir. 8300-dən çox sözdən ibarət olan bu lüğətə ilkdəfə olaraq sosial şəbəkələrdə işlədilən ən yeni terminlər də əlavə olunmuşdur [198]. Müasir dövrdə nəşr olunan çoxdilli lüğətlər sırasında "İngiliscə-azərbaycanca-rusca aviasiya terminləri lüğəti" də var. Lüğətdə mülki aviasiyanın bütün fəaliyyət sahələri əhatə edən 7000-dən çox termin və bu terminlərə aydınlıq gətirən ingilis, fransız, ispan, rus dillərində çoxlu sayda məlumatlar verilmişdir [174]. Tibb sahəsində çap olunmuş "Tibb terminləri və klinik simptomlar lüğəti" təbabət ilə maraqlanan hər kəs üçün faydalı vasitədir. Kitabda praktik və elmi təbabət üçün lazım olan termin və simptomlar diaqnostika, daxili xəstəliklər, infeksiyalar, cərrahiyyə, pediatriya, onkologiya, ginekologiya və s. üzrə əlifba sırası ilə verilmişdir. Burada eponimik və qeyri-eponimik termin və simptomlar, latın və Azərbaycan dillərində orijinal və izahlı şəkildə şərh edilmişdir [213]. Hərbi sahədə 2010-cu ildə Zahir Salahov,

İkram Qasımovun müəllifliyi ilə “İngiliscə-azərbaycanca-rusca hərbi terminlər” lüğəti nəşr olunub. Lüğət 15000-dən artıq termin, söz və ifadəni əhatə edir və hazırkı dövrdə respublikamızda ordu quruculuğu işlərində, eləcə də digər dünya dövlətləri ilə diplomatiya və hərbi əməkdaşlıq sahəsində əlaqələrin genişlənməsində xüsusi əhəmiyyətə malikdir [186]. R.Əliquliyev ,S.Şükürlü, S.Kazımovun təşəbbüsü ilə 2009- cu ildə Azərbaycan dilində elmi fəaliyyətlə bağlı ilk izahlı “Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər” lüğəti nəşr olundu. Lüğətdə elmi fəaliyyətdə istifadə olunan 1082 əsas terminin geniş izahı verilir. Lüğətin müsbət keyfiyyətlərindən biri də terminlərin böyük bir qisminin ana dilində işlənən qarşılıqları ilə verilməsidir. Lüğətdə terminlər əlifba sırası ilə düzülmüş və izahı elə qurulmuşdur ki, təsnifat nəticəsində onlar arasında yaranmış əlaqə itməsin [165]. Nəşriyyat təcrübəsində ilk nümunə olan izahlı lüğətlərdən biri də “Kino, televiziya, radio terminləri”dir. Kitabda kino, televiziya, radio, video, həmçinin bu sahələrin sıx bağlı olduğu informatika, sosiologiya, informasiya texnologiyaları və müasir kommunikativ jurnalistika sistemində ən çox işlənən terminlərin izahı verilmişdir [192]. Azərbaycan statistikasında ilk dəfə olaraq sistemli və kompleks şəkildə hazırlanmış 2010-cu ildə nəşr olunan “İzahlı statistika terminləri lüğəti”ndə bu sahə ilə bağlı 3768 anlayış və onların izahları öz əksini tapmışdır [181]. Tərcümə prinsipi əsasında qurulmuş ikidilli lüğətlərdən biri də 2004-cü ildə K.M.Şərifovun müəllifliyi ilə nəşr olunan “Rusca-azərbaycanca dəmiryol nəqliyyatı terminləri lüğəti”dir. 15000-dən çox termin və termin birləşmələrini əhatə edən bu lüğətdə terminlərin Azərbaycan dilində dəqiq qarşılıqları verilmiş, bəzi terminlərin tərcüməsi mümkün olmadıqda isə onların dildəki sinonimləri qeyd olunmuşdur [210]. Kənd təsərrüfatının bir çox sahələrinə aid terminoloji lüğətlər çap edilmişdir. Lakin arıçılığa dair terminoloji lüğətin yaradılmasında heç bir təşəbbüs göstərilməmişdir. İlk dəfə olaraq Q.Sultanlı 2010-cu ildə “Rusca-azərbaycanca arıçılıq terminləri” lüğəti hazırlamışdır. Lüğətdə arıçılığa dair rus dilində olan ədəbiyyatlarda işlədilən 4200-ə qədər termin və ifadələrin ilk dəfə Azərbaycan dilində tərcüməsi verilmişdir [208]. Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 31 Elmin bir çox sahələrinin sistemli şəkildə araşdırılması respublikamızda elmin inkişafına təkan vermişdir. Bu inkişafla bağlı mütəxəssislər və elmi-tədqiqatla məşğul olan tədqiqatçıların araşdırmaları dil bazasının genişlənməsinə, yeni terminlərin, anlayışların yaranmasına səbəb olur. Bunu nəzərə alaraq elmin bütün sahələrində çalışan tədqiqatçıların qarşılaşdıqları çətinlikləri aradan qaldırmaq, zəruri ehtiyaclarını təmin etmək məqsədilə elmi bazanı özündə əks etdirə bilən lüğətlərin ana dilində işlənib hazırlanması zərurəti yaranmışdır. Termin elm, texnika, iqtisadiyyat və mədəniyyət sahəsində dəqiqləşmiş anlayışları adlandıran, izah edən, definitiv funksiyaya malik olan sözdür. Termin dəqiq olmaqla bərabər, həm də qısa olmalıdır. Terminin qısalığı onun asan mənimsənilməsi, yadda yaxşı saxlanılması üçün əsas şərtdir. Sözün termin kimi formalaşması çoxmərhələli prosesin nəticəsidir. Belə ki, terminin yaranması üçün ilk növbədə anlayış mövcud olmalı və bu anlayışı ifadə edən söz onun əlamətlərini dəqiq ifadə etməli, definitiv mənaya malik olmalıdır. İkinci mərhələdə termin-sözün əlavə mənaları kənarlaşdırılır, onun işləklik səviyyəsi müəyyənləşdirilir. Üçüncü mərhələ unifikasiya, standartlaşma və kodifikasiyadır. Bu zaman termin-söz üçün ən uyğun forma seçilir və o, elmi lüğətlərdə yer alır. Beləliklə, terminologiyada termin yaradıcılığı mütəxəssislərin fəaliyyəti nəticəsində tənzimlənir və inkişaf edir.

II

Bununla yanaşı iqtisadi sahədə kalka yolu ilə yaradılan terminlər də üstünlük təşkil edir. Məsələn, səhmdar, sifarişçi, ödəmə və s. Avropa dillərindən alınan terminlərin əksəriyyəti beynəlxalq səciyyə daşımaqla yanaşı, mənbə dildə olduğu kimi işlənir: bank, audit, dividend və s. Qloballaşan dünyada universallıq meyli hər sahədə olduğu kimi, iqtisadiyyat terminologiya və anlayışlar sahəsində də xüsusilə özünü büruzə verir. Təbii ki, milliyyətindən və dilindən asılı olmayaraq, dünyanın hər bir vətəndaşı üçün internet, kompüter, e-mail və s. terminlər o qədər doğmadır ki, onları ana dilinə tərcümə etmək haqqında çox az sayda adam düşünür. Bu qəbildən olan dövlət maliyyəsi sahəsində bir sıra populyar anlayışları, məsələn, büdcə, bank, birja və s. kimi terminləri göstərmək olar. Amma bununla yanaşı, dövlət maliyyəsi sahəsi o qədər zəngin və mürəkkəbdir ki, burada çoxsaylı mürəkkəb anlayışları ifadə edən terminlər də mövcuddur. Cəmiyyətin bütün sahələrini getdikcə daha çox əhatə edən daşınma axınlarının inkişafı nəticəsində yeni texnologiyalara ciddi maraq yaranmışdır. Bununla da logistika elminin yüksək sürətlə inkişaf etməsi bu sahədə işlənən və yeni meydana çıxan anlayışların ifadəsi olan terminlərin sayının da sürətlə artmasına səbəb olmuşdur. Bu sahədə işlənən terminlərin əksəriyyətini milli sözlər (çıxarılma, çıxış, cürbəcür, dəyişdirilmə, bağlantı, ailə, etibarlılıq, yük, yükalan, anbar və s.) təşkil etsə də, rus, xüsusilə ingilis dilli (dok, dok-tu-stok, agent, autsayder, autsorsinq, biq-beq, implosion, indossament, inkoterm, hedc və s.) terminlər də çoxluq təşkil edir.

Dilin daxili imkanları hesabına termin yaradıcılığı prosesində kalkalar müasir dövrdə istifadə olunan üsullardandır. Kalkaetmə prosesinin öyrənilməsi ictimai-siyasi əhəmiyyət kəsb edən dil əlaqələrinin tədqiqi probleminin bir tərkib hissəsidir. Bu prosesin öyrənilməsi, həmçinin müasir dildə baş verən hadisələrin təhlili və tədbiqi ilə bir həmahənglik təşkil edir. Bu baxımdan X.V.Quliyevanın "Rus dilindən Azərbaycan dilinə kalkaetmə yolları" adlı monoqrafiyası kalkaların yaranmasını şərtləndirən dildaxili və dilxarici amillər, kalkaların çoxaspektli xüsusiyyətləri təhlil olunması baxımından diqqəti cəlb edir. O yazır: "Kalkalaşma meyli müasir dövrdə sözalmaya nisbətən xüsusilə fəaldır. Çünki yeni sözlərin əsas qismi mətbuatda işlənir, ümumişlək səciyyə qazana bilmir. Ona görə də təbii yolla həmin sözlərin kalkasının yaradılmasına zərurət əmələ gəlir" [54,s.113]. Azərbaycan dilində kalka yolu ilə termin-söz birləşmələri yaradılarkən həm dilimizin terminlərindən, həm də sözdüzəldici şəkilçilərindən geniş istifadə olunur. Hal-hazırda kalka üsulu ilə yaradılan yeni termin-söz birləşmələrinin miqdarı daha çoxdur. Bu üsulla yaradılan terminlərin böyük bir qismini sintaktik yolla əmələ gələn terminlər təşkil edir. Məsələn: aralıq istehlak, artırılmış balans, bilik iqtisadiyyatı, borc neytrallığı və s. Terminologiyada kalka üsulu ilə yaradılan terminlərin üstünlük təşkil etməsi elmlərin inkişafı, bir-birinə inteqrasiya etməsi, müstəqillik qazandıqdan sonra başqa ölkələrlə azad, siyasi, iqtisadi əlaqələrin artması ilə bağlıdır. Tərcümə üsulu ilə termin yaradıcılığı prosesi müasir dildə ən çox müraciət olunan üsullardandır. Son dövrlər bir çox elmi Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 21 sahələrdə terminlərin ingilis dilindən tərcümə olunaraq mənimsənilməsi prosesi müşahidə olunur: administratorinzibatçı, hot keys- qaynar klavişlər, mause-siçan, drunk mouse-sərxoş (tutqun) maus və s. Söz və anlayış arasında assosiativ əlaqə termin yaradıcılığının mərkəzində dayanır. Termin anlayışa uyğun gəlmədikdə onu yeni terminlə əvəzləmə zərurəti yaranır. S.Sadıqova yazır: "sərxoş maus-kompüter mausunun kontakt şarının tutulması və ya çirklənməsi zamanı mausa verilən addır. Burda işlənən "sərxoş" termini anlayışı düzgün ifadə etmədiyinə görə "tutqun" termini ilə əvəz etmək daha münasibdir. Çünki anlayışlar adlandırılarkən terminlə anlayış arasındakı uyğunluqlar nəzərə alınmalıdır" [204,s.5]. Alınma sözün milli vahidlərlə əvəz olunması o zaman uğurlu olur ki, yeni yaranan söz struktur və semantik

baxımından alınma sözü tam ifadə edə bilsin.s.Quliyeva yazır: “Semantik və struktur normalar pozulduğu halda əvəzolunma məqsədi ilə yaradılan terminlər mənimsənilmir, varianta, sinonimə, paralelə və ya dubletə çevrilir” [55,s.41]. Elm və texniki kəşflərin çoxluğu alınma terminlərin yaranmasına səbəb olur. Son illər kompüter və texnologiya sahələrinin inkişafı ilə əlaqədar terminologiyada yüzlərlə anlayış, məfhum yaranmışdır. Bu məfhumları ifadə edən terminlərin bir çoxu başqa dildə necə işlənirsə, eləcə də alınıb işlədilir. Məs.: internet, ZIP, dog tag, disk, adapter, 3G, tester, spam, modem, punktir, aplet, sensor, eqosörfinq, coystik, eksployt, friker, sniffer, bruter, mantissa, teq, ossiloskop; Göründüyü kimi, nümunədəki sözlər alındığı dildə olduğu kimi reseptor dildə də işlənir və onun qarşılığı olmur. terminlərin digər qismi isə dilin fonetik, qrafik, qrammatik normalarına uyğun olaraq mənimsənilir. Son dövrlər alınma terminlərin mənimsənilməsi prosesində transkripsiya və transliterasiya ən çox müraciət olunan vasitələrdir. Hər bir söz transliterasiya edilərkən ana dilinin tələbləri-tələffüz və qrammatik cəhətləri, yazının isə qrafik xüsusiyyətləri nəzərə alınır. Veb-brauzer, vay-fay, tvist, tvitter, skayp, skrinşot, selfi və s. tipli sözlər milli dildə bu üsul vasitəsilə mənimsənilmişdir.

Kalka sözün hissəsi üzrə tərcümə edilib, sonra həmin hissələrin mexaniki surətdə birləşdirilməsidir. A.Qurbanov yazır: “Başqa dillərin söz və ifadələrinin eyni ilə deyil, tərcümə edilərək alınmasına kalka yolu ilə alınma Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 209 deyilir. Kalkada sözün forması, onun səslənməsi yox, ifadə etdiyi məna götürülür” [58,s.393]. Əslində, kalka ekvivalenti olmayan sözü təşkil edən morfemlərin onların hərfi qarşılıqları ilə əvəz olunmasıdır. Başqa bir mənbədə kalka və kalkaetmə anlayışları bir-birindən fərqləndirilərək belə izah olunur: “Hər hansı bir dilin elementlərindən istifadə etməklə başqa bir dilin leksikfrazeoloji və sintaktik modeli əsasında yeni söz və ifadələrin yaradılmasıdır” [17,s.161]. Kalka alınmalar və məna tərcümə terminlərlə həm oxşar, həm də fərqli cəhətlərə malikdirlər. Kalkalar mənşə nöqteyi nəzərindən alınma hesab olunsalar da nəticə etibarı ilə onlar dilin öz vahidləri hesabına yaranmış sözlərdirlər. Tərcümə ilə fərqli məqam ondan ibarətdir ki, tərcümə prosesində yalnız məna tərcümə olunursa, yəni yalnız məna alınması halı müşahidə olunursa, kalkaetmə prosesində həm məna, həm də struktur alınır. Məhz bu səbəbdən dilçilikdə kalkaetmə bəzən ayrıca bir bölüm kimi araşdırılır. Kalka üsulu ilə terminlər yaradılarkən həmin dilin qrammatik quruluşu əsas rol oynayır və terminlər dilin daxili qanunları əsasında yaradılır. Kalkalar haqqında daha az məlumata rast gəlirik, nəinki leksik alınmalara. Bu iki səbəblə bağlıdır. Əvvəla, kalkalar dildə alınma sözlərə nisbətən azdırlar. İkinci səbəb kalkanı müəyyən etmək çətindir. Belə ki, onu gah alınma, gah da dilin daxili imkanları əsasında yaranan söz kimi qəbul edənlər var. Məsələn, yaşıl işıq- green lightзеленый свет nəqliyyat, yol işarəsi bildirən söz birləşməsi olmaqla yanaşı, bəlkə dildə əvvəldən mövcud olan yaşıl işıq sözünün məcazlaşması da ola bilər kimi fərziyyələr buna sübutdur. Kalka haqqında Arapova, Dann, Zaliznyak, Pfandl kimi dilçilər də araşdırma aparmışlar. X.Pfandl yazır: “Əlbəttə, problemin həlli üçün ilkin mənbə yetərli deyil və beynəlmiləl və ingilis mənşəli alınmaları ayırmaq həmişə asan deyil.” X.Pfandla görə kalka linqvistik və ekstralinqvistik təsirlərin nəticəsində daxili sözyaratmadır [117,s.87]. Kalkaetmə prosesi bütün dünya dillərində mövcuddur. Kalka üsulunun mahiyyəti haqqında dilçilik ədəbiyyatında müxtəlif fikirlər irəli sürülmüşdür. Kalka üsulu ilə yeni terminlər yaradılarkən tərcümə olunan bu və ya digər söz həmin dildə eyni mənanı verən sözlərlə, yaxud söz və sözdüzəldici şəkilçilərlə ifadə edilməlidir. Buna görə də tərcümə olunan sözün tam semantik qarşılığı müəyyənləşdirilməlidir. Əks halda, onu kalka adlandırmaq olmaz və bu zaman anlayış və məfhumların daha dəqiq ifadəsi də mümkün olmaz. Fikrimizcə, kalkalar alınma terminlərin mənimsəmə üsullarından biridir. Mənimsəmə prosesi zamanı kalkalar tərcümə olunur və reseptor dildə mənbə dildəki strukturu ilə mənimsənilir. Göründüyü kimi, mənimsəmə prosesinin əsasını tərcümə təşkil edir. Amma tərcümə təkcə mənanın və mahiyyətin tərcümə olunması ilə məhdudlaşmır. Bu proses sonradan sözün quruluşunun və struktur sabitliyinin köçürülməsi ilə başa çatır. Kalka üsulu ilə dilimizdə bir çox terminlər yaradılmışdır. Linqvistik təhlillərə əsasən Azərbaycan dilində kalka üsulu ilə yaradılan terminlərin əsas hissəsi isimlərdir və onlar öz quruluşuna görə müxtəlif olmaqla Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 211 daha çox düzəltmə və mürəkkəb söz şəklində formalaşırlar. Kalka üsulu ilə yaradılan terminlərin böyük bir qismini iki və daha artıq sözün qrammatik baxımdan uyğunlaşması nəticəsində əmələ gələn terminlər təşkil edir. Bitişik yazılan, yaxud ayrı yazılan bu terminləri təşkil edən sözlər ayrılıqda müstəqil məna ifa etsələr də, tərkib daxilində bir məna ifadə edərək bir anlayışı ifadə edirlər. Müasir dövrdə söz birləşməsi şəklində kalkalar daha üstünlük təşkil edirlər. Söz birləşmələrinin əsas tərəfi isim olması isə daha çox nəzərə çarpır. Məs: Dövlət sifarişi (state order) – dövlətin xüsusi marağının olduğu məhsulların istehsalı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üçün səlahiyyətli dövlət orqanları tərəfindən verilən və dövlət büdcəsi vəsaiti hesabına ödənilən sifarişdir. O.S.Axmanova kalka prosesi haqqında yazır: “Kalkaetmə başqa bir dilin, yaxud başqa dillərin leksik-semantik modelinin alınması, onları nəzərdə tutulan dilin morfemləri ilə tamamlamaqla yeni sözlər yaradılması, yaxud dilə yeni sintaktik üsulların gətirilməsidir” [97,s.139]. Bu səbəbdən dildə bəzən daha mürəkkəb söz birləşmələri şəklində

olan kalkalara da rast gəlirik, məsələn: Ardıcıl mühasibat metodları prinsipi (consistent accounting methods principle) – maliyyə bəyanatlarının komponentlərinin strukturu, mühasibat metodları və qiymətqoyma qaydaları bir ildən növbəti ilə keçiddə oxşardır. Müasir dövrdə Azərbaycan dilində işlək olan termin kalkalar öz mürəkkəb quruluşları ilə fərqlənirlər. Söz birləşməsi şəklində olan bu kalkaları aşağıdakı kimi qruplaşdıra bilərik: I növ təyini söz birləşmələri şəklində: dəmir üçbucaq, cari hesab [current account], diyircəkli konveyer, paletli araba, döndərici qıfıl; II növ təyini söz birləşmələri şəklində: dövlət sirri, doldurma müddəti, fraxt şərtləri, zaman sırası, zaman müddəti, zavod ehtiyatı; Sadə isim+sadə isim; Dövlət maliyyəsi (public finance) – dövlətin vergiqoyma, borclanma və xərc siyasətini analiz edən iqtisadiyyatın bir sahəsi; dövlət məvacibi (public salary) – dövlət qulluqçusuna pul ilə ödənilən haqq; ehtiyat hesabı (reserve account)– kommersiya banklarının mərkəzi bankda ehtiyat tələbi hesabı; dövlət nəzarəti (public control) – dövlət hakimiyyətinin həyata keçirilməsinin elə bir formasıdır ki, dövlət orqanları tərəfindən qəbul edilən normativ-hüquqi aktlara tam riayət olunmasını təmin edir. Sadə isim+düzəltmə isim; Dövlət borcalması (public borrowig) – rəsmi qanunvericiliyə əsasən, Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri və qeyri-rezidentləri tərəfindən qaytarılma şərtləri borcverənlə razılaşdırılmaqla müəyyən müddətə maliyyə vəsaitinin cəlb edilməsi deməkdir. Sadə isim+mürəkkəb isim; Dəmir üçbucaq (iron triangle) – üç qrupdan ibarət kooperasiya: birinci qrup səlahiyyət verir, ikinci qrup idarə edir, üçüncü qrup gəlir götürmək marağı olan qrupdur. Düzəltmə isim +sadə isim; Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 213 Xəzinədarlıq səhmi (treasury stock)– şirkətə məxsus səhmlərin həmin şirkət tərəfindən sərmayəçilərdən geri alınması deməkdir. Bu halda səhmlər ləğv olunmur, sərmayə kimi şirkət rəhbərliyinin qiymətli kağızlar portfelində saxlanılır. Düzəltmə isim+düzəltmə isim; Bilik iqtisadiyyatı (knowledge economy) – yaradıcılıq, informasiyanın emalı və interpretasiyasının daxil olduğu bilik fəaliyyətlərinin üstünlük təşkil etdiyi müasir iqtisadiyyat; Sifət+ isim; Cari hesab (current account) – müştərinin adına açılır və pul vəsaitlərinin saxlanılması və nağdsız hesablaşmalar aparmaq üçün, pul köçürmələrinin alınması və göndərilməsi üçün istifadə edilir. Sifət+düzəltmə isim; Beynəlxalq daşıma (international transportation) – yüklərin və sərnişinlərin Azərbaycan Respublikası ilə (Azərbaycan Respublikasının sərhədlərindən) digər dövlətlərdəki məntəqə arasında daşınma sayılır. Yaxud da, birbaşa vergilər (direct tax) – vergi ödəyicilərinin gəlirlərindən və əmlakdan bilavasitə yığılan vergidir. Bu gəlirlər vergi ödəyicilərinin əldə etdiyi gəlirləri xərcləməmişdən əvvəl tutulur. Düzəltmə sifət+ isim; Aralıq istehlak (intermediate consumptio) – müəyyən bir dövr ərzində məhsul və ya xidmətlər istehsal etmək məqsədilə istifadə olunmuş məhsul (əsas fondlar istisna olmaqla) və bazar xidmətlərinin dəyəri; Feli sifət+ isim; Artırılmış balans (augmented balance) – tam balans üstəgəl mərkəzi bankın səbəb olduğu istənilən itkilər; sindikatlaşdırılmış kredit (syndicated credit)– birdən çox maliyyə təşkilatının toplaşaraq eyni bir iqtisadi subyektə eyni şərtlərlə verdiyi kredit; Kalka yolu ilə yaranan iki komponentli terminlərdən terminologiyada ən çox işlənən sifət-isim, isim-isim quruluşlu birləşmələridir. Kalkalar, yəni hərfi tərcümə alınmalar eyni zamanda semantik hadisədir. L.A.Ponemerenko yazır: "Kalka olunma prosesi təbii ki, qarşılıqlı təsirdə olan dillərin struktur yaxınlığının dərəcəsi leksik tərkibinin inkişaf dərəcəsi, kalka edən dildə sözyaratma üslubu, kalka olunmanın baş verdiyi tarixi şərait və s. bu kimi faktorlarla şərtlənir" [123,s.18]. Deməli, kalka zamanı sözlərin semantik baxımından yaxınlığı da əsas sayılır. Sözlərin kalka edilməsi, tərcümə və alınma anlayışlarının aydınlaşdırılması vacib şərtdir. Təbii ki, bu proseslərin hər ikisində başqa dildəki vahidin ədəbi dildəki düzgün qarşılığını tapmaq tələb olunur. Kalka üsulu ilə yaranan terminləri alınma terminlərlə birləşdirən əsas cəhət onların modellərinin eyni olmasıdır. Belə ki, bu terminlərin hər ikisi mənsub olduqları dildə həm quruluşca, həm məzmunca uyğun gəlir. Alınmalardan fərqli olaraq kalka zamanı milli dil vahidlərinə üstünlük verilir. X.Quliyeva yazır: "Həm alınma, həm də kalka mənşəcə başqa dilə məxsus olmaqla bərabər birbirindən fərqlənən cəhətlərə malikdir. Alınmalardan fərqli olaraq kalkalar başqa dilin sözləri və sözdüzəldici vasitələrinə uyğun şəkildə bir dilin materiallarına çevrilən struktur modellərdən ibarətdir. Alınma sözdə isə bu xüsusiyyət yoxdur. Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı 215 Alınmalar başqa dildə olduğu kimi, tamamilə mənimsəyən dilin fonetik quruluşuna uyğunlaşdırılır, kalkalar isə yalnız məzmunca mənimsənilir. Doğma dilin səs materialı, sözdüzəldici şəkilçiləri ona yeni quruluş verir və beləliklə də dildə əvvəllər mövcud olmayan yeni sözlər meydana gəlir" [54,s.171]. Alınma sözlər, tərcümə sözlər və kalkalar haqqında S.Sadıqova yazır: "Kalka üsulu ilə əmələ gələn terminlərdən danışarkən bir məsələni də qeyd etmək zəruridir. Ən əvvəl kalka zamanı terminologiyada işlənən termin, termin-söz birləşmələri ilə tərcümə prosesi zamanı dilimizə, terminologiyaya gələn alınmalar qarışdırılmamalıdır. Tərcümə prosesində elə terminlər olur ki, onları tərcümə etmək lazım gəlmir və ya mümkün olmur. Bu halda həmin terminlər eynilə ingilis, rus və başqa dildə olduğu kimi terminologiyamıza daxil edilir. Terminologiyada olan beynəlmiləl terminlərin əksəriyyəti bu qayda üzrə yaranmışdır. Kalka zamanı isə anlayışlar öz dilimizdə olan sözlərlə, terminlərlə verilir. Bu prosesdə dilimizin qrammatik vasitələri- morfoloji və sintaktik üsulları əsas götürülür. Burada həm məfhumlar, həm də bu məfhumları ifadə edən sözlərin birləşməsi hadisəsi yenidir. Yəni birləşmənin tərkibini təşkil edən

sözlər və ya sözlə, şəkilçi dilin öz söz və şə-kilçiləridir. Lakin bu sözlərin birbirinə birləşib yeni elmi anlayış ifadə etməsi hadisəsi yenidir [85,s.178-179]. Deyilənləri ümumiləşdirsək belə qənaətə gələrik ki, kalkaetmə sadə proses deyildir. Kalkalaşma prosesi operativ xarakter daşıyır. Bu zaman anlayış bir dildən başqa dilə mexaniki olaraq keçir. Belə ki, tərcümə olunmuş məna baxımından alınma olan bütün sözləri kalka kimi dilimizə daxil edə bilmərik. Azərbaycan dilinə kalkaetmə prosesində bu və ya digər məfhumun, anlayışın dəqiq ifadəsi üçün aşağıdakı bir sıra şərtlər zəruridir. Bura ana dilində həmin sözün struktur baxımında eyniliyi, tərkib hissələrin sabit strukturda olması, struktur sabitliyinin reseptor dilin normativlərinə uyğunlaşdırılması və bütün bunlarla yanaşı semantik baxımdan sözün reseptor dildə ekvivalentinin tapılmasıdır. Kalkalar haqqında danışdıqsa, onların mənşələrinə də nəzər salmaq lazımdır. Əgər XIX əsrin əvvəllərində kalka üçün əsas mənbə rus dili idisə, hal-hazırda ingilis dilidir. Azərbaycan dili terminologiyasında bu və ya digər sahələr aid çoxsaylı kalkalara rast gəlirik. Müasir dövrdə yaranan kalkaların əksəriyyəti sintaktik üsulla yarananlardır. Bu tip kalkalar struktur mürəkkəbliyi ilə seçilirlər. Dilçilikdə kalkaetmənin xarakteri baxımından iki tipi qeyd olunur: tam kalkalar, yarımçıq kalkalar. Tam kalkalarda söz kalka edilən dilin modelinə tam uyğun gəlir. Sözlərin qarşılığı tapılaraq dilin modelinə uyğun olaraq formalaşır. Məsələn, dövlət sirri (state secret), ehtiyat hesabı (reserve account), dövlət ma-liyyəsi (public finance), dövlət borcalması (public borrowing). Qarışıq kalkalarda isə tərəflərdən biri kalka edilir, digəri isə donor dildəki formasını saxlayır. Məsələn, sindikatlaşdırılmış kredit (syndicated credit), antidempinq rüsumları (antidumping duties) və s.